# Mükafatlandırma siyasətinin əsas prinsipləri

"Kapital Bank" ASC-nin mükafatlandırma siyasəti Azərbaycan Respublikasınınn hüquqi aktlarının tələblərinə uyğun olmaqla aşağıdakı prinsiplər əsasında formalaşdırılır:

- bankın strateji hədəflərə nail olmasına yönəldilməli;
- bankın uzunmüddətli fəaliyyət nəticələrinə və mənfəətliliyinə əsaslanmalı;
- bankın risk iştahasına adekvat olmalı və izafi risk qəbulunu məhdudlaşdırmalı;
- bank tərəfindən üzərinə uzunmüddətli risklərin götürülməsi hesabına qısamüddətli dövrdə gəlir əldə etməsinə təşviq etməməli;
- maraqlar münaqişəsinə yol verməməli;.
- Adekvatlıq (mükafatlandırma Azərbaycan Respublikasınınn qanunvericiliyinə və qabaqcıl beynəlxalq təcrübəyə uyğun olmalı);
- Ədalətlilik (dəqiq ölçülmüş əsas effektivlik göstəriciləri əsasında obyektiv qiymətləndirmə ilə işçinin əməyinin ədalətli ödənişini təmin etməli);
- Balanslaşma (bütün növ mükafatların nəticəyə əsaslanaraq ödənilməsi, həm fərdi, həm də kollektiv əməyi stimullaşdırmağa yönəlməli);
- Səmərəlilik (mükafatlandırmaya yönəldilən xərclərin Bank üçün adekvat səmərə gətirməli)
- Uyğunluq (mükafatlandırma sistemi əmək bazarı səviyyəsinə uyğun olmalı);
- Şəffaflıq (mükafatlandırma siyasəti ilə bağlı məlumatlar işçilərə açıqlanmalı).